AZƏRBAYCAN ORDUSU

# Müdafiə nazirinin Birləşmiş Ərəb Əmirliklərinə səfəri

*Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Müdafiə Məsələləri üzrə Dövlət naziri Məhəmməd Əhməd Əlbavardi Əl Flasi ilə görüşüb.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Müdafiə naziri Şeyx Məhəmməd bin Rəşid Əl Məktumun dəvəti ilə Əbu-Dabi şəhərində səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov burada keçirilən “IDEX-2019” Beynəlxalq Müdafiə Sərgisinin açılış mərasimində iştirak edib.

Mərasimdən sonra general-polkovnik Zakir Həsənov sərgi ilə tanış olub və burada qabaqcıl silah istehsalçılarının nümayiş etdirdiyi ən müasir döyüş texnikası və hərbi vasitələrin nümunələrinə baxış keçirib.

* * *

Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov “IDEX-2019” Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən Türkiyə Respublikasının “Makina və Kimya Sənayesi Qurumu”, “ROKETSAN”, “ASELSAN” və “Otokar” şirkətlərinin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şirkətlərin rəhbərləri ilə görüşərək iki ölkə arasında hərbi texniki sahədə mövcud əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Müdafiə naziri hərbi sahədə birgə layihələrin hər iki ölkənin ordularının güclənməsinə xidmət edəcəyinə əmin olduğunu bildirib.

* * *

Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərinə səfəri çərçivəsində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Müdafiə naziri general-leytenant Andrey Ravkovla görüşüb.

Görüşdə tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini qeyd edib, eləcə də maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

* * *




“IDEX-2019” Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan nümayəndə heyəti Belarus Respublikasının hərbi sənayesinin istehsal etdiyi döyüş texnikaları və hərbi təyinatlı digər vasitələrlə tanış olub, ordumuzun arsenalını gücləndirə biləcək silah və texnika ilə yaxından maraqlanıb.

Sərgi zamanı Müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri cənab Roman Qolovçenko ilə görüşüb.

Tərəflər hərbi və hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini, müasir hərbi texnologiyaların tətbiqi imkanlarını və qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.